*Nümunəvi xidmət*

# "Döyüşə hər zaman hazırıq"

***"N" hərbi hissəsinin düşmənlə təmas xəttində nümunəvi xidməti ilə fərqlənən və şəxsi heyətin sosial-məişət təminatına cavabdeh olan bölüyün baş çavuşu gizir Hünər Qaçayevin ordu sıralarında 2006-cı ildən xidmət etdiyini öyrənirəm.***

Kürdəmir rayonunun Qarasaqqallı kəndindən olan Hünər, əsgəri xidmətini Hərbi Dəniz Qüvvələrində keçib. Daha sonra vətənpərvərlik sevgisi, hərbçi olmaq istəyi onu yenidən ordu sıralarına qaytarıb. Gizir Qaçayevin hərbçi olmaq istəyi hələ 5-6 yaşlarında olarkən yaranıbmış.

- Qarabağ müharibəsi illərində vətəndaşlarımızın doğma torpaqlarından didərgin salınması, erməni qəsbkarları tərəfindən törədilən soyqırımlar, faciələr məndə düşmənə nifrət hissi yaratmışdı. Müəllimlərimə deyirdim ki, böyüyəndə hərbçi olacam, torpaqlarımızı işğaldan azad etmək və qardaş-bacılarımızın qisasını almaq üçün döyüşəcəm, - deyir Hünər.

2006-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində gizirlik kursunu bitirdikdən sonra Naxçıvan Muxtar Respublikasında yerləşən "N" hərbi hissəsində xidmətə başlayır. Taqım komandirinin müavini vəzifəsində xidmət edən Hünər Qaçayev xidmətin ilk günlərindən bacarığı, məsuliyyəti ilə seçilir. Taqım komandiri kimi müxtəlif hərbi hissələrdə xidmət yolu keçən gizir hazırda ön xətdəki bölmənin baş çavuşu vəzifəsindədir. Gizir H.Qaçayev uzun müddətdir bu bölmədə xidmət edir. Bölmənin göz oxşayan təmizliyi, əsgərlərin səliqə-sahmanı Hünərin bölüyün baş çavuşu vəzifəsinin öhdəsindən layiqincə gəldiyini sübut edir. Bacarıqlı gizir xidməti dövründə mükafatlara layiq görülüb. 2008-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı və 2015-ci ildə "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunub.

Gizir söhbətimizdə deyir ki, hər səhər şəxsi heyətin sıra baxışını keçirir və hərbi geyimlərinin qaydasında olmasını diqqətdə saxlayır. Həmçinin, əsgərlərin vaxtı-vaxtında tibbi müayinədən keçməsinə və gündəlik isti yeməklərlə qidalanmasına nəzarət edir.



- Döyüş hazırlığı, maddi-texniki təminatla yanaşı, əsgərlərin sosial-məişət şəraiti də daim diqqət mərkəzindədir. Bölüyümüzdə qida təminatımız da yüksəkdir. Əsgərlərimizin yataq dəstləri, əl-üz dəsmalları və s. hər həftə dəyişilir. Əsgərlər hər gün baxış zamanı ehtiyac duyduqları ləvazimatla təmin olunurlar, - deyir gizir.

O, əsgərlərin mənəvi durumu ilə də yaxından maraqlanır, onlarla daim söhbət edir və qayğılarına qalır.

- Biz döyüşə hər zaman hazırıq, - deyə vətənpərvər gizir söhbətinə davam edir. - Hər bir Azərbaycan əsgəri kimi biz də Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə qadirik. Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun qələbəsi ruh yüksəkliyimizi daha da artırıb.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**